

Kibertəhlükəsizlik kafedrasının assistenti: Arifli Aydan Rauf qızı
E-poçt: aydan.arifli@aztu.edu.az

Aydan Rauf qızı Arifli 2 yanvar 1998-ci ildə anadan olub.

2015-ci ildə Bakı Dövlət Universitetinə "İnformatika müəllimliyi" ixtisası üzrə bakalavriata qəbul olunub və 2019-cu ildə məzun olub.

2020-ci ildə Bakı Dövlət Universitetinə "Kompüter elmləri" ixtisasının "Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı" ixtisaslaşması üzrə magistraturaya qəbul olunub və 2022-ci ildə bitirib. Magistr dissertasiya işi: *Qeyri-səlis approksimasiya və onun tətbiqləri*.

2022-ci ildə Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat və kibernetika" fakültəsi "İnformasiya texnologiyaları və proqramlaşdırma" kafedrasında ixtisas üzrə bəzi fənlərin tədrisini saathesabı qaydada aparıb.

2023-cü ilin fevralından Azərbaycan Texniki Universiteti "Kibertəhlükəsizlik" kafedrasında mühəndis-proqramçı vəzifəsində işə başlayıb. Kafedrada bütün sənəd dövriyyəsinin idarəçiliyi ilə yanaşı, aşağıdakı fənlərin tədrisini də aparır:

- İnformasiya təhlükəsizliyinin əsasları
- Təhlükəsizlik avadanlıqları
- Mobil və naqilsiz şəbəkələrin təhlükəsizliyi
- Veb təhlükəsizlik

**Elmi əsərlərinin siyahısı**

1. Arifli A.R., Qurbanov F.İ., **Riyazi modellərin Z ədədləri vasitəsi ilə qurulması istiqamətində xüsusi çəkili metrik fəzaların tətbiqi** / *"Riyaziyyatın Tətbiqi məsələləri və yeni informasiya texnologiyaları" IV Respublika elmi konfransı*, №9, 2021, səh.158-159.
2. Arifli A.R., **Qeyri-səlis sistemlərdə çıxarış üsullarının adaptasiya olunma metodu** / *Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş «Tətbiqi riyaziyyatın müasir problemləri» Respublika elmi konfransının materialları*, 2022, səh. 7-8.
3. Arifli A.R., İmamverdiyev Y.N., **ZCash kriptovalyutasının analizi** / *Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tələbə və gənc tədqiqatçıların "Mütərəqqi texnologiyalar və innovasiyalar" mövzusunda VIII Respublika elmi-texniki konfransı*, 2023, səh.166-169.